**UOT745/749**

**Tural Ağayev**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**AZ 1029, Bakı, Heydər Əliyev pr.58**
**E-mail**: **tural.agayev.94@mail.ru**

# ARİF QAZIYEVİN YARADICILIĞINDA DEKORATİV ÜSLUBUN TƏTBİQİ

**Xülasə:** Bu məqalədə Azərbaycanın Xalq rəssamı, professor A.Qazıyevin həyat və yaradıcılığı araşdırılmışdır. Onun yaradıcılığında dekorativliyin nə dərəcədə öz həllini tapması və həmçinin dekorativ heykəltəraşlığında kompozisiya və emosiyaların qarşılıqlı təsirləri haqqında, özünəməxsusluğu ön plana çəkilmişdir.

**Açar sözlər:** təsviri sənət, heykəltəraş, sənətkar, dekorativ, professional, kolleksiya, forma, kompozisiya, əsər, plastika, material.

Təsviri sənətin ən böyük növlərindən biri olan heykəltəraşlıq Azərbaycan ərazilərində ta qədim zamanlardan formalaşmağa başlamışdır. Şərq ölkəsi olduğumuz üçün azərbaycanlı sənətkarlar daha çox monumental tətbiqi sənəti milli yönümdə həyata keçirirdilər. Bu təsviri sənətlər atributlaşdırılmış formalarda olduqları üçün antik dövr Yunan-Roma təsviri sənətindən tamamilə fərqli yönümlü inkişaf prosesi yaşayırdı. Daha çox kaşılar, zoomorf formalı təsvirlər, miniatürlər və s. kimi sənətkarlarımızın sevimli təsvir vasitələri idi. Lakin dövr keçdikcə bu proses zəyifləməyə başlayır. XX əsrdə Azərbaycan torpaqları Sovet Rusiyasının hakimiyyəti altına düşdükdən sonra incəsənətdə dəyişikliklər baş verir. Beləki təsviri sənətdə Avropanın professional xüsusiyyətləri yaranmağa başlayır. Bu bir növ rus hakimiyyətinin təsiri idi. İncəsənətdə realizm formalaşmağa başladı və beləliklə də Azərbaycanda professional heykəltəraşlığın əsası qoyulur.

Yeni mərhələdə olan məşhur heykəltəraşlarımızdan F.Əbdürəhmanov, C.Qaryağdı, P.Sapsay və s. kimi sənətkarlarımız özlərindən sonrada məktəb qoyub

getmişlər. XX əsr heykəltəraşlıq məktəbindən olan dəyərli sənətkarlarımızdan biri də Xalq rəssamı, professor Arif Qazıyev olmuşdur.

A.Qazıyev Naxçıvan Muxtar Respublikasında dünyaya göz açmışdır. Bu şəxsiyyət sənətə XX əsrin 60-cı illərində sıçrayışla addımlamağa başlamışdır. A.Qazıyev 1953-cü ildə Ə.Əzimzadə adına rəssamlıq məktəbinə daxil olmuşdur. Burada o, öz bacarığı, istedadı ilə tez bir zamanda müəllim və tələbə heyyətinin diqqətini öz üzərinə çəkməyi bacarmışdır. Artıq 1957-ci ildə A.Qazıyev dördüncü kursda oxuyarkən onun balıqlar əsəri Barnaulda muzeydə sərgidə nümayiş etdirilmişdir və bu əsər muzeydə saxlanılmışdır. 1958-ci ildə A.Qazıyev Ə.Əzimzadə adına məktəbi fərqlənmə diplomu ilə bitirir. Qazandığı naliyyətin ən önəmli hissəsini onun diplom işi "Tənəffüs" adlı heykəli tuturdu. Ə.Əzimzadə adına rəssamlıq məktəbini bitirdikdən sonra onu Tiflis Rəssamlıq Akademiyasına dəvət edirlər. 1959-cu ildə sənətkar Moskvaya yola düşür və burada o üç il V.I.*Surikov adına* Moskva Rəssamlıq Institutundatəhsil aldıqdan sonra institutda qalıb dərs deməyə dəvət etdilər. Lakin sənətkarın daxilindəki ailə, vətən sevgisi bu dəvəti imtina etməyə sövq etdi. Bununlada o yenidən vətənə qayıtdı.

Moskvada oxuduğu illər ərzində A.Qazıyevəbir çox tanınmış sənətkarlar dərs demişdirlər. Bunların arasında M.O.Monizel, Jelinski, Tomski, Baburin kimi dahi sənətkarlar olmuşdurlar.

Vətənə qayıtdıqda artıq A.Qazıyev Gürcüstan və Rusiya torpaqlarında 14 sərgidə iştirak etmişdi. O,1967-ci ildə Ə.Əzimzadə adına rəssamlıq məktəbində dərs deməyə başlamışdır. 1980-ci ildə isə M.Əliyev adına İncəsənət Universitetində pedaqoji fəaliyyətini davam etdirməyə başlamışdır. 2000-ci ildə Azərbaycan Dövlət Rəssamlıq Akademiyası yarandıqdan sonra sənətkar öz fəaliyyətini burada davam etdirir. Hal-hazırda Rəssamlıq Akademiyasının "Rəsm" kafedrasının professoru vəzifəsində çalışır.

Heykəltəraş A.Qazıyev gənc yaşlarında hələ Ə.Əzimzadə də təhsil alarkən öz rəsm cızmaları ilə tələbə yoldaşları və müəllim heyyətini valeh edirdi. Rəsmə qarşı olan sevgi onun heykəltəraşlıqda da öz məharətini göstərməyinə təkan verirdi. Oxuduğu illər ərzində gecə və gündüz çalışması nəticəsində sənəti dərinliyi ilə mənimsəməsinə səbəb olur.

Hər bir sənətkar kimi sənətdə özünə aid seçimi olub. Bu vətənpərvərlikdən irəli gələn millilik duyğusudur. A.Qazıyevin yaradıcılığı geniş şaxəlidir. Yaradıcılığı boyunca portret janrı, relyef, animalistika və həmçinin dekorativ səpkidə də heykəllər işləmişdir. A.Qazıyev monumental rəssamdır. Buna baxmayaraq onun dəzgah üslubunda da əsərləri az deyildir. Dəzgah üslubunda işlənən əsərləri təkcə Azərbaycanda deyil Avropa ölkələrində də kolleksiyalarda qorunub saxlanılır.

Heykəltəraşın yaradıcılıq psixologiyası vahiddir. Bu da əsas milli ünsürləri özündə əks etdirən əsərlər toplusudur.

Onun dekorativ səpkili əsərlərində daha çox bunu hiss edə bilərik.Nəzər yetirsək ki, heykəltəraş SSRİ dövründə yaradıcılıq fəaliyyəti ilə məşğul olurdu, buna baxmayaraq milli motivlərdən istifadə etməyi çəkinmirdi. Bunu dekorativ səpkidə işlənmiş "Kamanın naləsi" əsərində də görə bilərik.

Bu əsərlərin hər birində insan duyğusunun zərif xüsusiyyətləri və həmçinin əsərdən qaynaqlanan güclü emosional təsirləri hiss etmək olur. Araşdırmalar göstərir ki, onun dəzgah dekorativ heykəllərinin əksəriyyəti bir neçə surətə nüsxələnmişdir. Bu faktiki olaraq bir heykəlin bir kolleksionist tərəfindən deyil, bir necə kolleksionistin duyğularını maksimum həddə çatdırdığı üçün heykələ olan alış tələbatını yüksəltmişdir.

Sənətkarın əsərləri öz orijinallığı ilə insanı valeh edir. Bunu daha çox dekorativ dəzgah heykəltəraşlığında görə bilərik. Hal-hazırda sənətkarın bir necə dekorativ heykəlləri ilə daha yaxından tanış olacağıq.

Sənətkar A.Qazıyev yaradıcılığında “Məhəbbət” heykəli öz forması ilə maraq doğurur. Heykəl tuncdan hazırlanmışdır. Postamenti boz qranitdəndir. “Məhəbbət” adlı heykəllərə bir çox heykəltəraş müraciət etmişdir. A.Qazıyev bu əsəri digərlərindən orijinallığı ilə seçilir. Beləki, heykəl plastik keçidləri, həmçinin simvolistikası ilə diqqəti cəlb edir. Əsərə baxdıqda sanki iki aşiqin ruhunun bir vicudda vəhdətini görə bilirik. Bu vahidlik məcazi mənada ruhun eyniliyinə işarə edir. Heykəltəraşın yaradıcılığı bu əsərdə iki aşiq əslində bir vicuddadır fikrinə əsaslanaraq vahidlik qənaətinə gələ bilirik. Heykəlinyuxarıya doğru uzanaraq orada çevrə yaratması sanki iki aşiq allaha qovuşurlar və çevrə dünyaviliyi sanki simvolizə edir. Əsərin digər cəlb edən hissəsi onun bir qədər burulmasıdır. Nə qədər plastiklik öz həllini tapsada bu burulma bir qədər istirabı, ağır yollardan keçməyi simvolizə etmiş kimi analiz etsək daha doğru olar. “Məhəbbət” əsəribu xüsusiyyətləri ilə öz orijinal formasını sübut edir.

A.Qazıyev digər dekorativ dəzgah heykəllərindən biri də “Bumeranq” əsəridir. Heykəl tuncdan işlənmişdir. Plintusu qara qranitdəndir. Bu əsər də öz orijinallığı ilə seçilir. Heykəlin kompozisiyası dekorativ formada iki bumeranqın birləşməsindən formalaşmışdır. Bildiyimiz kimibumeranq hardan atılırsa havada fırlanaraq yenidən atılmış nöqtəyə qayıdır. Bumeranqın digər özəlliyi də ondan ibarətdir ki, heç bir zaman o eyni trayektoriya ilə qeri qayıtmır. Heykəltəraş bu iki bumeranqın ilk künclərini bir-birinə bitişik təsvir edib. Digər küncü ilə bir-birləriylə kəsişir. Forma cəhətdən maraq doğursada burada izləyici tərəfindən bir qədər məntiqi keyfiyyətlər formalaşır. Beləki başlanğıcı eyni nöqtədən başlayan, qayıdışı kəsişən hadisələri bizim düşüncəmizə salır. Həmçinin bumeranq özü dövrülüyü simvolu kimi sanki mizə görsədilir. Sanki həyat davam edir, eyni başlanğıcda başlayıb bir-birləri ilə zid gələn hadisə və varlıqlarla davam edir. “Bumeranq” əsəri sadəcə forma deyil sinvolik mənaları ilə insanı valeh edir.

Heykəltəraşın digər dekorativ dəzgah heykəllərindən biridə “Öpüş” əsəridir. Heykəl daşdan yonulmuşdur. Bu əsər Beynəlxalq Xəzər boyu ölkələr yarışmasında III yerə layiq görülmüşdür. Öz forma xüsusiyyətinə görə kifayət qədər plastikalı kompozisiyalı əsərdir. Əsərdə iki gəncin öpüşü təsvir edilmişdir. Bir qədər bu heykəldə öz xüsusiyyətinə görə “Məhəbbət” adlı heykəllə bənzərliyi vardır. Sadəcə “Məhəbbət” əsərində daha çox fəlsəfi və simvolik, həmçinin ümumi anlamda olduğu halda, “Öpüş” əsərində məna daha konkretləşmiş formadadır. Yəni hər iki əsərdə söhbət sevgidən gedir. Sadəcə “Öpüş” əsərində sanki heykəltəraş bir anı, bir epizodu tutaraq təsvir etmişdir. Məhz bu anın təsüratı tamaşaçılara nümayiş etdirmişdir.

Heykəltəraşın digər orijinallığı ilə seçilən dekorativ dəzgah heykəltəraşlıq nümunəsi “İntizar” əsəridir. Bu heykəldə tuncdan hazırlanmışdır. Əsərin üzəri ümumilikdə kükürdlə faktura verilərək yaşımtıl-göyümtül kolorit heykəltəraş tərəfindən yaradılmışdır. Kompozisiya yaşlı qadından ibarətdir. Beləki bu yaşlı qadın bir ana obrazını canlandırır. Fiqur heykəltəraş tərəfindən oturaq vəziyyətdə təsvir edilmişdir. Üzündəki cizgilər ananın intizar, kədər çəkdiyini göstərmişdir. Bir əlini çənəsinə qoyub oturması sanki onun öz övladının intizarında olduğunu göstərir. Əsərə diqqətlə nəzər yetirdikdə bütünlüklə kədəri, intizarı bir duyğu şəklində öz daxili aləmimizdə hiss edə bilərik. Beləlikldə bu əsər çox təsirləndirici əsərə daxil etmək olar. Təbii ki, A.Qazıyev istənilən əsərində personajın ilk növbədə ruhunu, hisslərini mükəmməl şəkildə bəlli

edir.

A.Qazıyevinduyğu və hislərlə bağlı bir çox əsərləri vardır. Bunlardan biridə "Soyuq" dekorativ dəzgah əsəridir. Əsər tuncdan hazırlanmışdır. Bu əsər üç ədəd nüsxələnmişdir. Bunlardan ikisi Almaniyada, biri isə Kanadada şəxsi kolleksiyada qorunub saxlanılır. Əsər öz forma xüsusiyyətlərinə görə bir qədər maraq doğurur. Kompozisiya qadın obrazından təşkil olunmuşdur. Çılpaq formada işlənmiş personaj sanki soyuqdan əsir. Formanın maraq doğurduğu ən əsas hissə isə əsərin qurşaqdan aşağı hissəsidir. Buayaq nayihəsi kifayət qədər dolu formada verilmişdir. Buda dekorativ əsəri bir o qədərdə plastik görünməsinə kömək edir. Bu qeyri adi formaya mənsub olduğu üçündə kolleksionistlərin diqqətini daha çox cəlb etmişdir.

A.Qazıyevindigər dekorativ heykəli "Balıq" əsəridir. Bu heykəl qoz ağacı, qarğı və latundan hazırlanmışdır. Heykəlin tarixçəsi bir qədər marağlıdır. Beləki heykəltəraş qoz ağacından "Nəsrəddin Tusi"ninportretini hazırlayarkən ağacın gövdəsindən bir parça artıq qalır. Heykəltəraş bu parçanın bir əsər kimi canlandıra biləcəyini hiss edir və kötük hissəciyini balıq formasına salır. Latundan göz və asıldan hazırlayır və bu asılqanı qarğıya birləşdirir. Nəticəyə orijinal bir əsər meydana gəlir.Ağacın üzərindəki çatlar heykəlin özünə təbii faktura verərək balığın əsl dərisini bənzədir. Balığın ağız hissəsidə kötüyün öz çatı ilə heykəltəraş tərəfindən hazırlanmışdır. Belə bir maraqlı kompozisiya heykəltəraşın hətta bir tullantınıda incəsənətə çevirmək bacarığından və istedadındanxəbər verir.

ArifQazıyevin yaradıcılığında onlarla bu cür dərin mənalı dekorativ heykəllər olmuşdur ki, buda incəsənətə meyilli olan insanların daim diqqətlərini cəlb etmişdır. Biz bu əsərlərdə Xalq rəssamı, professor Arif Qazıyevin dərin düşüncələrini görərək onun necə yaradıcı insan olduğunu kəşf edə bilirik. Bu yaradıcılıq Azərbaycan incəsənətində böyük izlər buraxmışdır. Nəticə etibarilə deyə bilərik ki, bu əsərlər insanların duyğu və hislərinədə böyük müsbət təsir göstərmişdirlər.

**Ədəbiyyat:**


1. Kərimov K.Ç., Əfəndiyev R.S., Rzayev N.İ., Həbibov N.D.-"Azərbaycan İncəsənəti"- Bakı, 1992
2. Salamzadə Ə.R., Kərimov K.Ç., Əfəndiyev R.S., Rzayev N.İ., Həbibov N.D.- "Azərbaycan İncəsənəti"- Bakı, 1977
3. Маркс и Энгельс об искусстве. М., 1996.
4. В. И. Ленин о литературе и искусстве. М., 1969.
5. Абдуллаева Н., Ковровое искусство Азербайджана. Баку, 1971.



**ТуралАгаев**


**Применение декоративного стиля в творчестве Арифа Казиева**

**Резюме**


В этой статье рассматривается жизнь и творчество Азербайджанского народного художника, профессора А.Казиева. Его творчество фокусируется на степени решения декоративности, а также на особенности композиционного и эмоционального взаимодействия в декоративной скульптуре.



**Ключевые слова:** изобразительное искусство, скульптор, мастер, декоративный, профессиональный, коллекция, форма, композиция, произведение искусства, пластика, материал.

**Tural Agayev**

**The use of decorative style in the works of Arif Kaziev****Summary**

This article discusses the life and work of the Azerbaijan People's Artist, Professor A. Kaziev. His work focuses on the degree of solution of decorativeness, as well as on the features of compositional and emotional interaction in decorative sculpture.

**Keywords:** illustrative art, sculptor, artist, decorative, professional, collection, form, composition, piece of art, plastics, raw material

**Məqalənin redaksiyaya daxil olma tarixi: 14.10.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 22.10.2018****Məqalənin çapa qəbul olunma tarixi: 25.10.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: dosent Mehriban Novruzova****ADMİU-nun Elmi Şurasının 22 dekabr 2018-ci il, 04 saylı qərarı ilə çap olunur**